Tarix və onun problemləri, №1 2010

**AYTƏN MEHDIYEVA**
*tarix elmləri nemizədi, dosent*

# QƏDIM ŞUMERDƏ IDARƏÇILIK

Son illərdə Qədim Şərq ölkələrində urbanizasiya prosesinin inkişafı ilə yaranan müxtəlif institutların tarixinin araşdırılması böyük maraq doğurur. Qədim Mesopotamiya ərazisində mövcud olan sivilizasiyalara xas mətnlərin urbanizasiya prosesi ilə bağlı verdikləri məlumatlar müxtəlif dövrlərə aid olan və fərqli xarakter daşıyan mətnlər və tədqiqat işləri təsdiqlənir. Eyni zamanda urbanizasiyanın siyasi və sosial strukturların dəyişdirilməsinin, iri miqyaslı hadisələrin baş verməsinin və siyasi tarixin yaranmasının yeganə yolu olması fikri daha az səslənir, Yaxın Şərq ərazisində mövcud olan sivilizasiyaların tarixinin öyrənilməsi urbanizasiya əleyhinə olan ənənələrin öyrənilməsinin əhəmiyyətini göstərir.

Qədim tarixi mənbələr araşdırıldıqda bir çox ölkə və qitə adlarına rast gəlinir ki, onlar "itirilmiş" ölkə və ya qitə adlandırılırdı. Bu "itirilmiş" ölkələrdən biri Lemuriya və ya Mu torpağı hesab olunurdu. Mənbələr Lemuriya torpaqlarının şimalda Himalay dağlarından cənubda Antarktidaya qədər uzandığını, daxili Asiya dənizinə malik olduğunu bildirirdilər (8;s.25). Qədim mətnlərə görə,bu torpaqlarda yaşayanlar yüksək biliklərin sahibi idilər. Iri konstruksiyaların inşasının aid olduğu bu mədəniyyətin daşıyıcıları öz şəhərlərini ağ və qara rəngli əhəngdaşı və bazaltdan inşa edirdilər. Metal və daşların xarakterik xüsusiyyətlərini bilən, mürəkkəb alətlər hazırlayan, təbiət hadisələri haqqında ətraflı məlumata malik olan, bir dildə danışan bu xalqların Çin və ya Şumer xalqı ilə qohum olması güman edilir (8; s.26).

Belə qədim mədəniyyətin daşıyıcıları hesab edilən və özlərini "Kengi/ Kengir" adlandıran (9; s.80) şumerlərin yaratdıqları şəhər-dövlətlər müasiri olan şəhər və dövlətlərdən fərqlənirdilər. Burada dövlət strukturlarının yaranması kənd təsərrüfatı işlərinin aparılması, suvarma sistemlərinin inşası və qorunması, vergilərin toplanılması, ticarətin inkişafı, dini mərkəzlər kimi müstəqil şəhərlərin mövcudluğu, məbədlərin və məbəd təsərrüfatlarının rolunun artırılması zərurəti ilə şərtlənirdi.

Qədim dövrlərdən yaranan şəhərlər inzibati, maliyyə, təsərrüfat, ideoloji, hərbi - strateji və mədəni sahələrdə aparıcı rola malik idi. Mahiyyətcə sivilizasiyaların inkişafına şəhərlərin təkamülü, onların tədricən yayılması və böyük əhali kütləsini öz ətrafında cəmləməsi baxımından yanaşmaq və qiymətləndirmək mümkündür. Müxtəlif dövrlərdə və sosial mühitlərdə şəhərlərə verilən qiymət ideoloji baxışlara müvafiq olsa da, eyni zamanda müəyyən edilmiş çərçivədən kənara çıxmaq hallarına rast gəlinirdi. Belə ki, kənd həyatının əksinə olaraq bəzən şəhərlərə inkişafın aparıcı qüvvəsi, bəzən isə ənənələri pozan, dağıdıcı qüvvə kimi yanaşırdılar (13; s.115). Qədim şəhərlərə kompleks cəmləşmə - mərkəzi-coğrafi, sosial, siyasi, dini, müxtəlif resursların və s. cəmləşdiyi mərkəzlər kimi də yanaşmağın mümkünlüyü fikri irəli sürülmüşdü. Bu baxımdan yanaşdıqda şəhərlər müxtəlif fəaliyyət növlərinin ərazi baxımdan cəmləşdiyi ərazi mərkəzləri kimi çıxış edirdilər ( 1; s.23).

Qədim İkiçayarasının cənubunda meydana gələn və özünəməxsus inkişaf xüsusiyyətləri olan Şumer mədəniyyəti qədim şəhərlərin öyrənilməsi baxımından böyük marağa səbəb olmuşdu. Gələcək Uruk şəhər-dövləti ərazisində ilk yaşayış məskənlərinin yaranması təxminən e.ə. 6500-ci ilə, İkiçzayarasının Uruk kimi qədim şəhərinin əsasının qoyulması isə e.ə. 3700-cü ilə aid edilir (15; s.15).

Ümumiyyətlə, Mesopotamiya ərazisində urbanizasiya prosesinin erkən mərhələsini izləmək bir qədər çətinlik törədir. Qeyd olunduğu kimi,şəhərlərin çox erkən yaranması, şəhər adlarının Şumer və akkadlara qədərki dövrlərə aid olması məsələni bir qədər çətinləşdirirdi. Sona qədər açılmayan səbəblərə görə urbanizasiya mərkəzi Cənubi Mesopotamiya ərazisinə təsadüf edirdi (11; s.88). Cənubi Mesopotamiyada şəhərlərin yaranması digər Yaxın Şərq ölkələrində müşahidə olunan qanunauyğunluqlar əsasında yaransa da, qeyd olunan regionun əsas fərqləndirici cəhətlərindən biri kimi bu cənub torpaqlarında artıq erkən dövrlərdən çox sayda şəhər və ya şəhər tipli yaşayış məntəqələrinin yaranmasını və Mesopotamiya sivilizasiyasının şəhərlərə sosial fenomen kimi yanaşmasını göstərir.

Şumerlərin ilkin vətəni problemi sona qədər dəqiqləşdirilməsə də, Şumer tarixi ilə məşğul olan alimlər arasında şumerlərin bu torpaqlara gəldikləri zaman çox az sayda olmaları fikri mövcuddur ( 2; s.56). Çay mənsəblərində məskunlaşan şumerlər Eredu şəhərində məskunlaşırlar. Eredu bütün mənbələrdə ilk Şumer şəhəri kimi taninir və Şumer dövlətçiliyinin beşiyi sayılırdı. Tədricən daxili rayonlara yayılan şumerlər yeni mədəniyyətin əsasını qoyur və yeni şəhərlər salırdılar. Yüksək mədəniyyətin daşıyıcıları olan şumerlər öz yazılarında şəhərləri, xüsusilə də Ur şəhərini tərifləyərkən göstərirdilər ki, hətta Marxaşidən olan Urda yaşayarkən şəhər mədəniyyətini qəbul edərək mədənilәşirdilər.Bununla Ur sakinləri istənilən "barbar"ı öz mədəni təsirinə salmaları ilə fəxr edirdilər (11; s.89).

E.ə. IV-III minilliyin birinci yarısında İkiçayarasının cənubunda bir neçə siyasi mərkəz mövcud olsa da, bu şəhər-dövlətlər etnik, dini və mədəni baxımdan vahidlik təşkil edirdilər. Şumer dövlətinin siyasi mərkəzi olan saray və məbədlər şəhərlər və ətraf əraziləri hakimiyyəti altında saxlamaqla suvarma sistemlərinin inşası, torpağın becərilməsi və ticarət yollarının yaradılmasına nəzarət edirdilər (3; s.207). Şumer hökmdar mətnlərində ətraf kəndlərin əhalisinin iştirakı ilə salınan yolların kənarında gözətçi məntəqələrinin olmasından bəhs edilir (11; s.95).

Regionu tədricən tabe edən şumerlər yerli əhalini sıxışdırmaq, qovmaq deyil, əksinə, onların əldə etdikləri yerli mədəniyyətləri qəbul etmək siyasəti yeridirdilər. Mesopotamiya şəhərlərində urbanizasiyanın nəticəsi və ya hərəkətverici qüvvəsi kimi vətəndaş anlayışı meydana gəlirdi. Yazılı mənbələrə görə, qədim və mühüm şəhərlər müəyyən imtiyazlara malik olur və mükəlləfiyyətlərdən azad edilirdilər. Bu şəhərlərin hüquqi statusu onları digər şəhərlərdən, həm də müxtəlif icma birliklərindən fərqləndirirdi. "Azad şəhərlər"in əhalisi siyasi vəziyyətdən asılı olaraq əmək mükəlləfiyyətləri, hərbi xidmət, vergilərdən azad edilirdi. III Ur sülaləsi dövrü inzibati mətnlərində "məhdud" azadlığı olan bəzi vətəndaşların torpaq işlərinə cəlb olunmadığı bildirilirdi. İsin hökmdarı İşme-Daqanın adı ilə adlandırılan ildə Nippur vətəndaşlarının hərbi xidmət, qızıl və gümüşlə ödənilən vergidən ( qu) azad edilməsi xüsusi fəxrlə qeyd olunurdu (11; s.96).

Cənubi Mesopotamiya şəhərlərinin yarandığı ilkin mərhələdə mətnlər nəinki təbəqələr, həm də etnik və tayfa birliklərinin olması barədə məlumat verirdilər. Xalq yığıncağının əsasını təşkil edən icmanın başçılar tərəfindən idarə olunması varlı və imtiyazlı şəhərlərdə müşahidə olunurdu. Bu yığıncaqlar daha çox tayfa yığıncaqlarına bənzəyirdi. Burada faktiki hakimiyyət nüfuzlu, varlı və yaşlı şəhərlilərin rəhbərliyi ilə əldə olunurdu. Məhkəmə qərarlarının çıxarılması, daşınmaz əmlakın alqı-satqısı, qətl və qarət hadisələrinə görə kollektiv məsuliyyətin daşınması və s. kimi məsələlər bu yığıncağın səlahiyyətləri daxilində həll edilirdi. Mesopotamiya şəhərlərindəki bu təşkilatlar şəhərlərin uzun müddət yaşaması üçün zəruri olan qüvvələr mütənasibliyi və ümumi harmo-

nik inkişafa şərait yaratdı. Şumer şəhər-dövlətlərindən fərqli olaraq, yunan polislərində bu proses inkişaf etmədi.

Şumer müstəqil dövlətləri hegemonluq uğrunda mübarizə aparırdılar. Mədəni və dini birliyə, müvafiq iqtisadi və siyasi strukturlara malik olan şumerlər müstəqil şəhərlərdən ayrı-ayrı dövlətlər yaratsalar da (2; s.64), əsasən Sarqonun dövründə Şumer şəhərlərini vahid mərkəzdə birləşdirmək mümkün oldu (12; s.508). Belə ki, e.ə.2312-ci ildə Sarqon Luqalzaqesini məğlub etdikdən sonra əsas Şumer şəhər-dövlətləri Uruk, Umma, Laqaş, Larsa, Şuruppak və b. onun ali hakimiyyətini qəbul etdilər. Bununla Suriyadan İran körfəzinə qədər böyük bir dövlət yarandı.

Cənubi İkiçayarası ərazisində Şumer şəhərlərinin yaranması e.ə.V-IV minilliklərə təsadüf etsə də, dini – mədəni və ticarət mərkəzi kimi onların çiçəklənməsi e.ə. III-II minilliklərə aiddir. E.ə.I minillikdə, bir sıra istisnalar olmaqla, bu şəhərlər siyasi əhəmiyyətini itirir və süqut edirdilər. Şumer şəhər-dövlətləri "güclü" hökmdarların dövründə müəyyən əraziləri tutmaqla şəhərlərin statusunu (paytaxt şəhəri, əyalət şəhəri, dini mərkəz, özünüidarə etmək hüququna sahib olan şəhər) müəyyən edirdilər. Bu status həm şəhərin, həm də onun tabeliyində olan ərazilərin idarəetmə sistemində öz əksini tapırdı. Şumer şəhərlərinin hər biri yerli baş allahın mülkiyyəti sayılırdı (10;s.54-55). E.ə.V-III minilliklərdə Cənubi Mesopotamiya torpaqlarında idarəçilik təxminən aşağıdakı kimi idi:

| şəhərin adı | Yarandığı Dövr | Himayəçi-allah | Hökmdar | Ağsaqqallar Şurası | Xalq yığıncağı |
|---|---|---|---|---|---|
| Eridu | e.ə.IV min. | Enki | + | + | + |
| Kiş | e.ə.IV-III min.qovşağı | Zababa | + | + | + |
| Laqaş | e.ə.V min. | Ninqirsu | + | + | + |
| Larsa | e.ə.IV min. | Utu | + | + | + |
| Nippur | e.ə.III min. | Enlil | Alu (baş kahin) | + | + |
| Sippar | e.ə.IV min. | Utu | + | + | + |
| Umma | e.ə.IV min. | Şarı | + | + | + |
| Ur | e.ə.IV min. | Nanna | + | + | + |
| Uruk | e.ə.IV min. | Ann-İnanna | + | + | + |
| Şuruppak | e.ə.V min. | Şuruppak | + | + | + |

Bu şəhərlər məbədin ali kahininin başçılıq etdiyi inzibati idarələr tərəfindən idarə olunurdu. Şəhər hakimi ( ensi) və ölkə hökmdarının ( luqal) funksiyaları bir şəxsin əlində cəmlənirdi. Bu şəxs adətən ağsaqqallar şurası və xalq yığıncağına istinad edirdi. Enlər şəxsən icma ibadətlərini müəyyənləşdirir, suvarma sistemlərinin inşasına, hərbi hissələrin formalaşdırılmasına, ağsaqqallar şurası və xalq yığıncağına rəhbərlik edirdilər. E.ə.III minilliyə aid olan Şumer mənbələrində idarəetmə funksiyalarına aid edilirdi: sifariş şərtlərini təsvir etmək; istehsal bazarında vəziyyət haqqında məlumata malik olmaq; sifarişin ümumi xərclərini hesablamaq; məhsulun keyfiyyətinə nəzarət etmək; sövdələşmələr təşkil etmək və reallaşdırmaq; müqavilələrin üzərində iş aparmaq (7; s. 99-100). E.ə.III minilliyə aid olan Misir istisna olmaqla, Yaxın Şərq, o cümlədən Mesopotamiya şəhərlərinin xarakterik xüsusiyyətlərindən biri hər bir şəhərin müdafiə tikililəri-

nin olması ilə bağlı idi. İdeologiya ilə əlaqədar olaraq hər bir şəhərin xarici görkəmi müəyyən olunurdu. Möhkəmləndirilmiş şəhərlər hərbi məqsədlərlə inşa olunan qalalardan fərqlənirdi. Şəhər divarları yalnız müdafiə xətti rolunu oynamırdı. O, bütün şəhər arxitekturasının xarakterini müəyyən edirdi. Müəyyən dövrlərdə dövlətin inzibati mərkəzi, hökmdar sarayı və baş məbəd müdafiə xətlərinin bir hissəsinə çevrilirdi (11; s.103).

Şumerdə idarəçilik şəhər-dövlətlərin yarandığı erkən dövrlərdə adət-ənənələrə, mərkəzləşdirilmiş dövlət yarandıqdan sonra, xüsusilə də III Ur sülaləsi dövründə qanunlar külliyyatına əsaslanırdı (4; s.56).

E.ə.III minillikdə şumerlər hüquqların təminat verdiyi qanunları tanıyırdılar. Erkən sülalələr dövründə Urukaginanın adı ilə qanunlar külliyyatının olması güman edilsə də, bu fakt konkret tapıntılarla təsdiqlənməmişdi. Uzun illər ərzində Hammurapi qanunları ən qədim qanunlar sayılsa da, e.ə. III minilliyin sonlarına aid edilən Şumer hökmdarı Ur-Nammuya aid olan qanunlar kodeksinin tapılması bu fikrin doğru olmadığını göstərdi. 1889-1890-cı illərdə aşkarlanan kodeksin mənası XX əsrin 50-ci illərinin əvvəllərində açıldı. Buna qədər e.ə.II minilliyin əvvəllərinə aid edilən Lipit-İştar qanunları tapılmışdı (6; s. 60-61). Lipit-İştar qanunları giriş, çoxsaylı qanunlar ( 37-si qismən və ya bütövlükdə saxlanılıb) və nəticədən ibarət idi. 1848-ci ildə Bağdad (İraq) muzeyinin əməkdaşının Harmal təpəsində apardığı tədqiqatlar nəticəsində Lipit-İştardan 70 il əvvəl yaşayan hökmdar Bilalama məxsus qanunlar külliyyatı tapılsa da, Ur-Nammu qanunlarının tapılması Şumer cəmiyyətində qanunvericilik fəaliyyətinin daha qədim dövrə aid olduğunu sübut etdi.

Mətn gil lövhədə 8 hissəyə ayrılır, üç hissədə uzun bir giriş, arxa hissədə qanunların şərhinə yer ayrılırdı. Üç hissədə göstərilirdi ki, yer kürəsinin yaradıldığı və Şumer ölkəsinin taleyinin müəyyən edildiyi bir vaxtda Allahlar An və Enlil ay allahı Nanunu Urun hökmdarı təyin etdilər. Nannu isə Ur-Nammunu öz canişini, Şumer və Urun hökmdarı seçdi. Ur-Nammu qonşuların Urun hesabına yüksəlişinin qarşısını almaq üçün Laqaşa müharibə elan etdi, qələbə çaldı və Urun sərhədlərini bərpa etdi. Bundan sonra o, yalançı və cinayətkarları uzaqlaşdırdı, ədalətli və dəyişməz ölçü və çəki sistemi yaratdı. Bütün bu tədbirlər "ədalət və vətəndaşların rifahı naminə" edilirdi.

Mətnin arxa hissəsi ciddi zədələndiyinə görə, yalnız beş qanunu bərpa etmək mümkün olmuşdu. I qanunda müttəhimlərin su ilə sınağa çəkilməsindən, II qanunda qulun sahibinə qaytarılmasından bəhs edilirdi (6; s. 63). Qarışıq yazılması və əsasən ayrı-ayrı hissələrinin oxunması mümkün olan qalan üç qanun ictimai münasibətlər və etik normaların öyrənilməsi baxımından böyük maraq doğururdu. Belə ki, e.ə.III minilliyin sonlarında mövcud olan bu qanunlarda fiziki cəhətdən pul cərimələri ilə əvəz edilməsi kimi insana daha humanist münasibətin olduğunu görürük (14; s.188-189).

1894-cü ildə Lövhələr təpəsində tapılan III Ur sülaləsi dövrünə aid olan məhkəmə sənədlərindən ibarət arxiv materiallarının əksəriyyəti boşanma, varislik, qarət, qətl, qulların mövqeyinin düzgün müəyyən edilməsi ilə bağlı keçirilən prosesləri özündə əks etdirən məhkəmə qərarlarının ( ditilla) yazildığı gil lövhələr olmuşdu ( 5; s. 76).

XIX-XX əsrlər ərzində Şumer ərazisində aparılan tədqiqatlar zamanı minlərlə hüquqi sənədlər: müqavilələr, razılaşmalar, veksellər ( borc sənədi), qəbzlər, vəsiyyətlər, məhkəmə qərarlarının yazıldığı lövhələr aşkar olunmuşdur. E.ə.III minilliyə aid hüquqi sənədlər ailə münasibətləri, ayrı-ayrı şəxslər və sosial qruplar arasında məlumat verir, hüquq normaları və məhkəmə proseslərini bərpa etməyə şərait yaradırdı. Əgər qanunlar dövrü barədə ideal sxem yaratsa da, onların reallaşdırılması barədə fikir söyləmək çətinlik yaradırdı. Məhkəmə sənədləri isə praktikada mövcud olan canlı reallığı əks etdirirdi.

Şumerdə əsasını dünyəvi kateqoriyalar təşkil edən fəlsəfi fikrin formalaşması idarəçiliyin inkişafı üçün baza rolunu oynayırdı. Bunlar Me- əşyaların ideal modeli, Nam- tale, Qarza- adət-ənənələr aktı, hökmdar hakimiyyətinin atributları, Giş-kur - əvvəldən müəyyən edilən ilahi layihə, Billuda- Allah tərəfindən bu torpaqlarda qoyulan qaydalar və s. idi (4, s.108). Bu kateqoriyaların təhlili göstərir ki, Şumer şəhərlərində formalaşan ideologiyaya görə, bu qədim cəmiyyət əvvəldən dəqiq müəyyən edilmiş bir qaydada inkişaf etməli idi.

Beləliklə, Erkən sülalələr, Akkad hakimiyyəti, kutilər və III Ur sülaləsinin hakimiyyəti dövründə Cənubi İkiçayarasında mövcud olan dövlətçilik ənənələri bir növ varislik xarakteri daşıyır, idarəetmə ənənələri dağıdılmır, onlar qorunaraq inkişaf etdilirdi. Babilistan dövləti yaranana qədər bu ərazidə mövcud olan dövlət başçıları iqamətgahlarının müxtəlif şəhərlərdə yerləşməsinə baxmayaraq, Şumer və Akkad hökmdarı titulunu daşıması bu baxımdan diqqəti cəlb edir. Xronoloji baxımdan Cənubi İkiçayarası hökmdarlarının hakimiyyət dövrləri və bu dövlətin əsas əlamətlərini xarakterizə etdikdə qədim dövrün tarixi şərtlərinə uyğunlaşan idarəetmə praktikasının formalaşmasının şahidi oluruq.

## *ƏDƏBIYYAT*

1.Ахиезер А.С. Город-фокус урбанизационного процесса. М., 1995
2.Белецкий М. Шумеры. Забытый мир. М.,2000
3.Всемирная история. Под ред.акад. Г.Б.Поляка, проф. А.Н. Марковой. М., 2009
4.Емельянов В.В. Древний Шумер. Очерки культуры. СПб., 2001
5.Источниковедение истории Древнего Востока. М., 1984
6.Крамер С.Н. История начинается в Шумере. М., 1991
7.Лафта Дж.К. Менеджмент. М., 2002
8.Лин фон Паль. Битва за Шамбалу. М.,2007
9. Mehmetov İ. Türk Kafkası'nda Siyasi və Etnik Yapı. Eski Çağlardan Günümüzə Azerbaycan Tarihi. İstanbul, 2009
10.Низовский А.Ю. Древний мир. М., 2001
11.Оппенхейм А. Древняя Месопотамия. Портрет погибшей цивилизации. М., 1990
12.Рыжов К. Все монархи мира. Древний Восток. М., 2001
13.Сванидзе А.А. Проблемы изучения городской истории// Всеобщая история: дискуссии, новые подходы. Вып.1.М.,1989
14.Хрестоматия по истории Древнего Востока. М., 1956
15.Цаплин М.Н. Всемирная история цивилизаций.Ростов н/Д.,СПб., 2006

**АЙТЕН МЕХТИЕВА**
***к.и.н.,доц.***

## УПРАВЛЕНИЕ В ДРЕВНЕМ ШУМЕРЕ

Города-государства, возникшие в древнем Шумере, занимали ведущую роль в административном, финансовом, хозяйственном, идеологическом, военно-стратегическом и культурном сферах. В процессе управления шумерских городов, ведущих борьбу за гегомонию, определение статуса городов имело важное значение. В городах, которыми управлял энси или лугаль, также имелись совет старейшин и народное собрание.

Управление в Шумере в раннем периоде опиралось на традиции, а после образования централизованного государства на свод законов. В Шумере формировались основы философской мысли, что послужило исходной базой управления, которое определялось категориями мирового плана.

**AYTEN MEHDIYEVA**
***Cand.of hist.sc., assoc.prof.***

## GOVERNMENT IN ANCIENT SUMER

The cities-states, arose in Ancient Sumer, took the leading position in the administrative, the financial, the economic, the ideological, the military-strategic and the cultural spheres. The definition of the cities status took the important significance in the governing process of Sumer cities, carrying on a struggle for the hegemony. There were also the council of Sages and the People's meeting in the cities, which were governed by Ensi or Lugal.

The Sumer government's based in early period on the traditions, but after the formation of the centralized state on the code. The principles of the philosophical thought were formed in Sumer, that served for an initial point of the governing registration, being defined by the categories of world plan.

***Rəyçilər: t.e.d.İ.M.Məmmədov, t.e.d.Q.S.İsmayılov.***
***Azərbaycan Beynəlxalq Universiteti «Ümumi tarix» kafedrasının 09 fevral 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №06).***